**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**GÜNEL NURƏDDİN qızı MƏMMƏDOVA**

# SULTAN MƏCİD QƏNİZADƏNİN YARADICILIĞINDA TƏHSİL - TƏRBİYƏ MƏSƏLƏLƏRİ

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar müəllim*

**Alxan Bayram oğlu Məmmədov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin
Pedaqogika və psixologiya kafedrası

Müdafiə "26" sentyabr 2017-ci il tarixdə saat $14^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana -İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat "___" _________ 2017-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi:** **dosent R.Z.Hümbətəliyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Azərbaycan xalqının məktəb, maarif və təhsil həyatı qədim, zəngin bir tarixə malikdir. Min illərlə ölçülən bu mədəni-pedaqoji hərəkatın bir çox hadisələrini, izini, şəxsiyyətlərini tarixin qaranlığı itirsə də, müəyyən faktlar hələ də qalmaqdadır. Təbii ki, tarixin dərinliyinə getdikcə məlumat və soraqlar azalır. Bununla belə həqiqətdə, yaşanılanların və yaradılanların müqabilində əldə edilən azsaylı məlumat və faktlar da Azərbaycan xalqının əsrlər boyunca məktəbə, təhsilə, maarif işlərinə xüsusi diqqət yetirdiyindən, təhsil ocaqları açdığından, görkəmli tərbiyəçilər, müəllimlər, elm və maarif xadimləri yetişdirdiyindən xəbər verir. Azərbaycan xalqının tarixi inkişafında belə əlamətdar dövrlərdən biri XIX əsrin sonu və XX əsrin əvvəlləridir. Həmin dövr xalqımızın ədəbi–mədəni, təsərrüfat-iqtisadi, maarif və pedaqoji həyatında görünməmiş bir oyanış və yüksəliş, daha dəqiqi intibah dövrü kimi xarakterizə olunur. Haqqında danışdığımız dövrdə xalqımızın yetişdirdiyi böyük şəxsiyyətlərdən biri də ***Sultan Məcid Qənizadədir.*** Bütün həyatını «fikri, sözü və əməli» ilə (F.Köçərli) öz xalqının təhsilinə, tərbiyəsinə, maariflənməsinə, tərəqqisinə həsr etmiş bu universal şəxsiyyət böyük fikir və əməl adamı kimi tanınır. O, professional müəllim, pedaqoq, metodist, istedadlı yazıçı, publisist, jurnalist, dramaturq, yeni tipli uşaq ədəbiyyatımızın banilərindən biri, ictimai-siyasi xadim olmuşdur. Azərbaycan xalqının məktəb və maarif həyatının yeni istiqamətdə inkişafında Avropa tipli təhsil ocaqlarının yaranmasında, təhsilimizin demokratikləşdirilməsində, milliləşdirilməsində, müasirləşdirilməsində Qənizadənin müstəsna xidmətləri vardır. O, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycandakı mütərəqqi pedaqoji hərəkatın əsas nümayəndələrindən biri idi. Yeni məfkurəli müəllimlər nəslinin, təhsildəki «üsuli-cədid» hərəkatının öncüllərindən sayılırdı. 1901-ci ildə mətbuatda yer alan bir foto-stend hələ o zaman onun yeni istiqamətli məktəb və təhsil hərəkatının mərkəzi fiquru kimi dərk və qəbul edildiyini aydın göstərir. Burada Azərbaycanın maarif həyatının ümumi və mütərəqqi mənzərəsinə işarə olan rəmzi bir ağac təsvir olunur. Ağacın gövdəsində və budaqlarında o zaman pedaqoji ictimaiyyət arasında tanınmış, kifayət qədər nüfuzlu müəllimlərin fotoları yer alır. Həmin müəllim-pedaqoqlar dəstəsinin mərkəzində S.M.Qənizadənin foto-şəkli yerləşdirilmişdir. Bu onun o zamankı mədəni-pedaqoji hərəkatdakı mövqeyinin göstəricisidir.

S.M.Qənizadə məktəb və təhsil həyatımızın irəliləyişi naminə böyük işlər gördü. Avropa tipli təlim metodlarını və tərbiyə vasitələrini ilk dəfə

Azərbaycanın məktəb həyatına tətbiq edənlərdən oldu. Məktəblilər üçün dəyərli, müasir mündəricəli dərsliklər yazdı. Həm məktəblər, həm də kütəvi oxucu üçün lüğətlər, rusca-azərbaycanca danışıq kitabı tərtib etdi. Yalnız məktəbdə deyil, teatr, qiraətxana-kitabxana yaratmaqla, həmçinin mətbuat vasitəsilə böyüməkdə olan nəslin tərbiyəsi qayğısına qaldı. Uşaqlar üçün dəyərli əsərlər yazdı, mütaliə kitabları çap etdirdi. Bir inspektor kimi Qafqaz müsəlmanlarına aid məktəblərdə maarifin yüksəlməsi, övladların daha səmərəli təhsil alması, təlimin məzmunca təkmilləşdirilməsi və yeniləşməsi uğrunda mübarizə apardı. Proqramların, dərs vəsaitlərinin, metodiki tövsiyələrin hazırlanmasında, təcrübə dərslərinin keçilməsində məsləhətçi rolunu oynadı. Qətiyyətlə demək mümkündür ki, S.M.Qənizadə Azərbaycan xalqının məktəb və təhsilinə əvəzsiz xidmətlər göstərmiş savadlı vətəndaşların yetişməsində heç kəslə müqayisə oluna bilməyəcək qədər səmərəli işlər görmüşdür. Bir sözlə, müasir təhsilimizi onun bünövrəsini qoyanlardan biri olan bu böyük şəxsiyyətsiz təsəvvür etmək mümkün deyil.

Təəssüf ki, bu böyük alimin, pedaqoq və müəllimin bu istiqamətdə gördüyü işlər kifayət qədər öyrənilməmiş, pedaqoji irsi geniş və lazımi şəkildə tədqiqat obyektinə çevrilməmişdir. Doğrudur, onun həyatı, pedaqoji fəaliyyəti, pedaqoji irsi ilə əlaqəli müəyyən elmi fikirlər, yığcam mülahizələr söylənilmişdir. Belə ki, filoloq alim X.Məmmədov[1] S.M.Qənizadənin həyat və yaradıcılığı ilə bağlı dissertasiya yazmış, sonra həmin dissertasiyaya bəzi əlavələr edərək onu monoqrafiya şəklində çap etdirmişdir. Həmin dissertasiya və monoqrafiyada pedaqoq və ədibin həyatı və bütövlükdə yaradıcılığı nəzərdən keçirilir. Onun nəsr əsərlərindən, təbdil və tərcümələrindən, uşaqlar üçün yazdığı bədii nümunələrdən, publisistikasından fililoji aspektdən söhbət açılır. Digər tədqiqatlarda da[2] maarifçi ziyalının müəllimlik fəaliyyətinə, pedaqoji görüşlərinə və irsinə bu və ya digər dərəcədə qısa çəkildə toxunulur. Halbuki ədalət naminə demək lazımdır ki, S.M.Qənizadənin müəllimlik fəaliyyətini, təhsil və maarifimiz

---

[1] Məmmədov X. Sultan Məcid Qənizadə (həyatı və yaradıcılığı): Fil. elm. nam. …dis. Bakı, 1963, 249 s.; Sultan Məcid Qənizadə. Bakı: Yazıçı, 1983, 214 s.

[2] Əhmədov H. S.M.Qənizadənin pedaqoji fikirləri // Azərbaycan məktəbi, 1966, №4, s.61-67; Tağıyev Ə. XX əsrin əvvəllərində Azərbaycanda «rus-müsəlman» məktəbləri // Azərbaycan məktəbi, 1982, №1, s.55-59; Tapdıqova Z. S.M.Qənizadənin maarifçilik fəaliyyəti və pedaqoji fikirlərinə dair // Azərbaycan məktəbi, 1987, №5, s.56-59

üçün gördüyü işləri, pedaqoji irsini lazımi səviyyədə öyrənmədən nə XIX-XX yüzilliklərdəki məktəb və təhsil tariximizi, onun mahiyyət və mündəricəsini, nə təhsilimizdəki milliləşmə və demokratikləşmə meylinin tarixini, nə də müasir təhsilimizin hansı ənənədən bəhrələndiyini öyrənə bilmərik. Əgər biz məktəb və təhsil tariximizin ənənəsini və mənzərəsini tam şəkildə təsəvvür etmək, onu bir nümunə kimi gələcək nəslə çatdırmaq istəyiriksə, onun əsas hadisələrini, bu istiqamətdə görülən faydalı işləri, bu yolda çalışan nüfuzlu şəxsiyyətlərin pedaqoji fəaliyyətini və irsini lazımi səviyyədə öyrənməli, tədqiq və təhlil etməliyik. Şübhəsiz ki, S.M.Qənizadə həmin şəxsiyyətlər sırasında ön cərgədə duranlardan biridir. Onun bu sahədə gördüyü işləri, yerinə yetirdiyi əməli və nəzəri missiyanı hərtərəfli mənada araşdırmağa ciddi ehtiyac vardır.

**Tədqiqatın obyektini** XX əsrin əvvəllərində Azərbaycanda məktəb təhsilinin və pedaqoji fikrin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** S.M.Qənizadənin yaradlcılığında təhsil-tərbiyə məsələləri təşkil edir.

**Tədqiqatın məqsədi** S.M.Qənizadənin həyatı və müəllimlik fəaliyyətini, elmi-pedaqoji irsini əhatəli şəkildə tədqiqata cəlb etməkdən, «rus-müsəlman» məktəblərinin, uşaq mətbuatı və uşaq ədəbiyyatı yaratmaq uğrunda mübarizəsinin əsas cəhətlərinə aydınlıq gətirməkdən, təhsil, təlim və tərbiyə ilə bağlı fikirlərini ümumiləşdirməkdən, məktəb dərslikləri və lüğətlər yaratmaq sahəsində gördüyü işləri müəyyənləşdirməkdən, onların əsas mahiyyət və məzmununu təhlil etməkdən, müəllim şəxsiyyəti, qadın tərbiyəsi ilə bağlı baxışlarını sistemləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri** aşağıdakılardır:

– S.M.Qənizadənin həyatının, pedaqoji və maarifçilik fəaliyyətinin səciyyəvi cəhətlərini, pedaqoji irsinin əsas nümunələrini üzə çıxarmaq və şərh etmək;

– S.M.Qənizadənin «rus-müsəlman» məktəblərinin yaradılması və inkişafı uğrunda mübarizəsini səciyyələndirmək;

– S.M.Qənizadənin uşaq mətbuatı və uşaq ədəbiyyatı yaratmaq sahəsindəki fəaliyyətini araşdırmaq;

– S.M.Qənizadənin həm təhsilin nəzəri və praktik məsələləri, həm də təlimin ana dilində aparılması ilə bağlı ideyalarını ümumiləşdirmək; S.M.Qənizadənin məktəb dərslikləri və lüğətlərinin əsas mahiyyət və məzmununu təhlil etmək;

– S.M.Qənizadənin müəllim və onun şəxsiyyəti, qadın təhsili, böyüyən nəslin mənəvi-əxlaqi, fiziki, əmək, milli və dini birlik tərbiyəsi ilə bağlı

baxışlarını sistemləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** hadisə və prosesləri, pedaqoji faktları araşdırmaq, elmi şəkildə dərk etmək, yeniləşdirmək niyyəti ilə tətbiq olunan elmi və nəzəri prinsiplərin, müddəaların, priyom və metodların məcmusu təşkil edir.

**Tədqiqatın metodları**: tarixi və tarixi-müqayisəli təhlil, problemlə əlaqəli ədəbi-bədii, elmi-pedaqoji, tarixi materialların, arxiv sənədlərinin öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada ilk dəfə S.M.Qənizadənin həyatı və müəllimlik fəaliyyəti, elmi-pedaqoji irsi əhatəli şəkildə tədqiqata cəlb olunur, «rus-müsəlman» məktəblərinin, uşaq mətbuatı və uşaq ədəbiyyatı yaratmaq uğrunda mübarizəsinin əsas cəhətlərinə aydınlıq gətirilir, təhsil, təlim və tərbiyə ilə bağlı fikirləri ümumiləşdirilir, məktəb dərslikləri və lüğətlər yaratmaq sahəsində gördüyü işlər müəyyənləşdirilir, onların əsas mahiyyəti və məzmunu təhlil edilir, müəllim şəxsiyyəti, qadın tərbiyəsi ilə bağlı baxışları sistemləşdirilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. S.M.Qənizadənin pedaqoji fəaliyyətinin, maarifçilik baxışlarının və bütövlükdə pedaqoji irsinin öyrənilməsi Azərbaycan məktəb və pedaqoji fikir tariximizi yeni fakt və materiallarla zənginləşdirir, həmin dövrün ictimai-mədəni, maarif və pedaqoji mühitini daha dərindən araşdırmağa, daha əhatəli təsəvvür etməyə imkan yaradır. S.M.Qənizadənin müəllimlik təcrübəsinin öyrənilməsi həmin təcrübədən müasir mərhələdə də bəhrələnməyə şərait yaradır. Böyük maarifçinin yaradıcılığının, elmi-pedaqoji baxışlarının tədqiqata cəlb edilməsi yeni istiqamətdə araşdırmaların aparılmasına münasib zəmin yaradır və bu istiqamətdə geniş perspektivlər açır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** S.M.Qənizadənin həyatı və pedaqoji fəaliyyətinə həsr olunmuş bu tədqiqat işinin materiallarından «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» dərsliyinin təkmilləşdirilməsində, biblioqrafiyaların, müntəxabatların, mühazirə materiallarının hazırlanmasında istifadə etmək mümkündür. Dissertasiya mədəni-pedaqoji fikir tariximizi zənginləşdirmək baxımından da əhəmiyyətlidir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın, məktəb təhsili və pedaqoji fikrin inkişafını ictimai-siyasi, elmi-mədəni və pedaqoji mühit şərtləndirilmişdir.

- XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda maarifçiliyin və pedaqoji hərəkatın yeni məcrada, yeni məzmun və mahiyyətdə inkişafına S.M.Qənizadənin pedaqoji irsi mühüm təsir göstərmişdir.

- Azərbaycanda yeni tipli məktəbin – «rus-müsəlman» məktəbinin təşəkkülü və inkişafı S.M.Qənizadənin və onun həmfikri H.B.Mahmudbəyovun adı ilə bağlıdır.

- Azərbaycanda məktəb təhsilinin inkişafında, ibtidai təhsil şəbəkəsinin genişlənməsində «rus-müsəlman» məktəbləri mühüm təsir göstərmişdir.

- S.M.Qənizadənin dərslik, lüğət və uşaq əsərləri bu tipli kitabların hazırlanmasında mühüm zəmin rolunu oynamışdır.

- S.M.Qənizadənin təhsil-tərbiyə ilə bağlı elmi-nəzəri ideyaları böyüyən nəslin əxlaqi-mənəvi, etik, estetik, əqli, fiziki, vətənpərvərlik, azadlıqsevərlik, milli və dini həmrəylik ruhunda tərbiyəsində mühüm rol oynamışdır.

- S.M.Qənizadənin pedaqoji irsi və ideyaları özündən sonrakı dövrdə pedaqoji nəzəriyyələrin inkişafına güclü təsir göstərmişdir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatla bağlı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi elmi nəşrlərdə bir neçə məqalə çap olunmuş, problemlə əlaqəli elmi-nəzəri və praktik konfranslarda məruzələr edilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə problemin aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsası, metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar öz əksini tapmışdır.

Dissertasiyanın birinci fəsli **"S.M.Qənizadənin həyatı və pedaqoji fəaliyyətinin əsas istiqamətləri"** adlanır. Fəslin ***"S.M.Qənizadənin həyatının ilkin dövrü (XIX əsrin 70-90-cı illəri)"*** adlı ilk yarımfəslində S.M.Qənizadənin həyatının maarifçilik və müəllimlik fəaliyyətinin 70-90-cı illər dövrü araşdırılır, həmin dövrdə yaratdığı elmi-pedaqoji irsi əhatəli şəkildə tədqiqata cəlb edilir və təhlil süzgəcindən keçirilir. Əsaslandırılır ki, Sultan Məcid Qənizadə (Qəniyev) 1866-cı ilin aprel ayında Şamaxı şəhərində Şahpir adlanan məhəllədə anadan olmuşdur. Yazıb oxumağı atasından öyrənən Qənizadə 1873-1874-cü illərdə məhəllə məktəbində təhsil alır. Mollaxana tipli məhəllə məktəbində, əsasən, Quran, qiraət və

şəriət qaydaları öyrədilirdi. Lakin çox keçmir ki, Şamaxıda «Məclis» məktəbi kimi tanınan yeni üsullu məktəb açılır. 1874-cü ildə fəaliyyətə başlayan «Məclis» məktəbi Azərbaycan xalqının məktəb və təhsil tarixində əlamətdar bir hadisə idi. Bu, Azərbaycanda ana dili tədris edilən ilk məktəb hesab edilir. Tədris və təlim prosesi yeni üsulla aparıldığından buna «üsuli-cədid» məktəbi də deyilir. Burada Azərbaycan, fars, ərəb, rus dilləri öyrədilir, hesab, tarix, coğrafiya, hüsnxət, rəsmxət və s. fənlər tədris olunurdu. 1874-cü ildə «Məclis» məktəbinə daxil olan Sultan Məcid 1879-cu ilin yazın sonlarında həmin məktəbi bitirir və şəhər məktəbinə daxil olur. 1882-ci ilin iyununda S.M. Qənizadə üçüncü dərəcəli şəhər məktəbini müvəffəqiyyətlə bitirdi.

Həmin məktəbin nəzdində birillik pedaqoji kurs da fəaliyyət göstərirdi. Kursu bitirənlərə ibtidai, həmçinin məhəllə məktəblərində dərs demək hüququ verilirdi. Əslində pedaqoji kurs ibtidai və məhəllə məktəblərində müəllimə olan ehtiyacı ödəmək məqsədilə açılmışdı. 1882-1883-cü tədris ilində Sultan Məcid həmin pedaqoji kursu da bitirdi. Sonra isə 1883-1887-ci illərdə Aleksandrovski Müəllimlər İnstitutunda təhsil aldı. İnstitut o zaman üçün tam müasir və mütərəqqi bir təhsil-tədris sisteminə malik idi. Birinci və ikinci kurslarda tələbələr, əsasən, nəzəri fənlər keçir, yəni nəzəri bilik qazanır, üçüncü və dördüncü kurslarda isə nəzəri fənlər keçməklə yanaşı həm də sınaq dərsləri deyir, təcrübə qazanırdılar. Ali məkəbin proqramında, əsasən, dünyəvi, həm də gərəkli fənlər tədris edilirdi. Tələbəlilik həyatı Sultan Məcidin siyasi əqidə və məfkurəsinin formalaşmasına da təsirsiz qalmadı.İnstitutda gizli inqilabi qruplar fəaliyyət göstərirdi. S.M.Qənizadə və H.Mahmudbəyov da belə qruplardan birində iştirak edirdilər. Ali məktəbi bitirən 27 nəfər məzundan 24-nə təyinat verilsə də, yalnız 3 nəfər azərbaycanlı tələbə təyinatdan məhrum oldu. Buna səbəb 1882-1887-ci illərdə imperiyanın Maarif naziri olmuş İvan Davıdoviç Delyanovun (1818-1897) 6 oktyabr 1885-ci il tarixli fərmanı idi. 1887-ci ilin may ayında Aleksandrovski Müəllimlər İnstitutuna göndərilmiş həmin əmrdə deyilirdi: «müəllimlik institutlarını bitirmiş xristian olmayan gənc müəllimlərə şəhər məktəblərində müəllimlik vəzifəsi verilməsin, çünki bu tip internasional məktəblərdə xristian olmayan müəllimlərin təsiratı xristian uşaqlarına din və əxlaq cəhətlərcə zərərli ola bilər». Şəhər məktəblərində işləmək onlara qadağan idi. Onlar Azərbaycanda ilk «rus-müsəlman» («rus-tatar») məktəbi aça bildilər. 1891-ci ildə Bakı camaatının xahişi ilə ikinci rus-müsəlman məktəbi fəaliyyətə başladı. H.Mahmudbəyov 1-ci, S.M.Qənizadə isə 2-ci rus-müsəlman məktəbinin müdiri təyin olundu.

Yarımfəsildə S.M.Qənizadənin teatr fəaliyyəti də əhatəli şərh edilir. 1891-ci ildə o, orijinal əsərlər kimi «Qönçə xanım» pyesini, 1905-ci ildə isə «Yadımdadır» vodevilini qələmə aldı. 1891-ci ildə rus dramaturqu V.Dyaçenkonun «Qurbana qurban», 1894-cü ildə L.N.Tolstoyun «Əvvəlinci şərabçı» pyeslərini tərcümə etdi. Yenə 90-cı illərdə rus dramaturqu Myasnitskinin «Xor-xor», erməni yazıçısı Q.Sundukyanın «Axşam səbri xeyir olur», yenə erməni ədibi Ter-Qriqorovun «Dursunəli və ballıbadı» kimi səhnə əsərlərini tərcümə etdi. 90-cı illərdə S.M.Qənizadə bədii yaradıcılıqla da məşğul olur. «Müəllimlər iftixarı» hekayəsini və «Gəlinlər həmayili» povestini yazır. «Müəllimlər iftixarı»nı 1892-ci ildə, «Gəlinlər həmayili»ni isə 1900 və 1912-ci illərdə çap etdirir. Bundan əlavə gənc yazıçı-pedaqoq 1894-cü ildə uşaqlar üçün «Tülkü və Çaq-çaq bəy» mənzum nağılını kitabça halında nəşr etdirir. 1896-cı ildə isə onun rus ədibi A.F.Poqosskidən eyni adlı hekayə əsasında təbdil etdiyi «Allah divanı» hekayəsi Bakı quberniya idarəsi mətbəəsində işıq üzü görür. 1893-cü ildə Qənizadə Orta Asiyaya səyahət edir. Orta Asiyanın bir sıra şəhərlərini gəzir. Əlbəttə, bu səyahət onun dünyagörüşünə müsbət təsir göstərir. 80-cı illərin sonu və 90-cı illərdə Sultan Məcidi ciddi surətdə məşğul edən məsələlərdən biri də anadilli məktəblərdə lazımi dərsliklərə olan ehtiyacı ödəməkdən ötrü dərsliklər yaratmaq təşəbbüsü idi. Gərgin iş rejimi olan müəllif bu istiqamətdə də faydalı işlər görə bilir. 1889-cu ildə 4 hissədən ibarət «İstilahi-Azərbaycan» dərsliyinin I və II hissələrini tamamlayıb 1890-cı ildə bir yerdə nəşr etdirir. Elə həmin ildə dərsliyin III hissəsini yazıb qurtarır və onu da çap etdirməyə nail olur. 1894-cü ildə isə dərsliyin IV hissəsini «Rusi və türki dilmancı» adı ilə nəşr etdirir. Elə həmin ildə pedaqoqun başqa bir dərsliyi – «Rus dilinin müəllimi» də işıq üzü görür. 1895-ci ildə müəllif «Müxtəsər rus əlifbası» dərsliyini yazır. Nəhayət, 1900-cu ildə fars dilinin tədrisindən ötrü tərtib edilmiş «Kilidi-ədəbiyyat» müntəxabatı meydana gəlir. Müəllim Əliiskəndər Cəfərzadə ilə birlikdə hazırlanmış bu müntəxabat həmin ildə də çap olunur. Bunlardan əlavə pedaqoqun 1897-ci ildə «Əlifbayi-mütəhərrikə» adlı əyani bir vəsait də hazırladığı məlumdur. 1899-cu il iyul ayının 1-də ona xalq maarifi sahəsində uzun müddət səmərəli və yaxşı xidməti nəzərə alınaraq kollec qeydçisi rütbəsi verilir. 1902-ci ildə yanvar ayının 1-də Qənizadə II dərəcəli «Müqəddəs Stanislav» medalı ilə təltif olunur. 17 sentyabr 1905-ci ildə kollec qeydçisi rütbəsi daha yüksək rütbə – kollec katibliyi rütbəsi ilə əvəz olunur.

***"S.M.Qənizadənin pedaqoji və maarifçilik fəaliyyəti (XX əsrin əvvəlləri və sovet dövrü)"*** adlı ikinci yarımfəsildə S.M.Qənizadənin XX əsrin əvvələrində və sovet dövründəki həyatının, pedaqoji və maarifçilik fəaliyyətinin səciyyəvi cəhətləri araşdırılır, pedaqoji irsinin əsas nümunələri təhlil və tədqiq olunur. Əsaslandırılır ki, 1891-1905-ci illərdə ikinci «rus-müsəlman» məktəbində müdir vəzifəsində çalışan Sultan Məcid 1905-ci ilin avqustunda yeni vəzifəyə – Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına inspektor təyin edilir. S.M.Qənizadə Zaqafqaziya Müəllimlər Seminariyasında yalnız üç il işləyə bildi. Milli təəssübkeşlik və qeyrətkeşlik istiqaməti tutan pedaqoq-metodistin seminariyanın direktoru, müsəlmanlara qarşı aqressiv münasibəti və nifrəti ilə fərqlənən, təlim prosesində ruslaşdırma və xristianlaşdırma siyasətini əsas məqsəd sayan M.Miropiyev ilə ziddiyyətləri getdikcə dərinləşdi. O, 1908-ci ilin 30 iyununda vəzifəsindən azad edildi, Bakı quberniyası Dağıstan vilayəti xalq məktəbləri idarəsinə inspektor təyin edildi. Bu məsul vəzifədə çalışdığı 10 il ərzində bacarıqla və ləyaqətlə işlədi, onun şəxsi pedaqoji ustalığı və təşəbbüskarlığı ilə xeyli uğurlar əldə edildi.

Azərbaycan Demokratik Cümhuriyyəti (1918-1920) dönəmində yazıçının pedaqoji cəbhədəki işi bir növ arxa plana keçir. O, daha çox ictimai-siyasi fəaliyyətlə məşğul olur. 1920-25-ci illərdə maarif və pedaqoji hərəkatın, mədəni mühitin ən fəal xadimlərindən birinə çevrilir. Azərbaycan Xalq Maarif Komissarlığında inspektor vəzifəsinə təyin edilir. 1921-ci ildə Qənizadə həmkarları Ə.İ.Cəfərzadə və M.Mahmudbəyovla birlikdə «Maarif» adlı bir uşaq jurnalı nəşr edir. Bu illərdə o, «Qırmızı günəş» jurnalı ilə də əməkdaşlıq edir. Uşaqlar üçün faydalı əsərlərlə jurnalda fəaliyyət göstərir. 1922-ci ildə əvvəllər çap etdirdiyi «Qafqaz-Azərbaycan ləhcəsində türk dilinin qrammatikası»[1] və «Rusca-türkcə lüğət»[2] (196) kitablarının üzərində işləyərək onları daha da təkmilləşdirir və yenidən nəşr etdirir. Bu illərdə o, bir pedaqoq, müəllim, metodist, jurnalist, alim, islahatçı, teatr həvəskarı, yazıçı, leksikoqraf, dilçi, təşkilatçı rəhbər və s. kimi öz bacarıq və enerjisindən maksimum həddə yararlanır. Xalqının maarif-

[1] Ганиев С.М. Грамматика тюркского языка Кавказско-Азербайджанского наречия. Изд. 6-е. Исправленное и дополненное (Истилащи-Азярбайъан). Баку: Азполиграфтреста, 1922, 53 с.

[2] Ганиев С.М. Русско-татарский словарь. Составленный в порядке русского алфавита по толковому словарю Владимира Даля. Изд. 6-е. Исправленное и дополненное. Баку: Биринъи щюкумят мятбяяси, «Каспий», 1922, 500 с.

lənməsi, mədəni tərəqqisi yolunda var qüvvəsi ilə çalışır. Onun bu illərdə gördüyü işlərin miqyası, həqiqətən, geniş və əhatəlidir. 1925-1929-cu illər arasında Bakı şəhərindəki müxtəlif texnikumlarda didaktika, psixologiya və pedaqogika fənlərini tədris edir. Həmçinin həmin texnikumlarda tələbələrin pedaqoji praktikasına rəhbərlik edir[1]. 1929-cu ildə Azərbaycan Sənaye İnstitutuna Azərbaycan dili müəllimi təyin edilir. Səkkiz il, daha doğrusu, ömrünün sonuna qədər həmin ali tədris müəssisəsində çalışır. 1937-ci ilin 25 iyulunda o, həbs edilir. 1938-ci ilin 14 martında onun barəsində «xalq düşməni» kimi ölüm hökmü çıxarılır. Mart ayının 21-dən 22-sinə keçən gecə hökm icra olunur. Bu böyük maarif mücahidi güllələnir. Onun vətən yanğısı ilə döyünən qəlbi susdurulur[2]. 1956-cı ildə bir çox repressiya qurbanları kimi S.M.Qənizadəyə də bəraət verilir.

***«Rus-müsəlman» məktəblərinin və uşaq mətbuatının yaradılması və inkişafı uğrunda mübarizədə"*** adlı üçüncü yarımfəsildə S.M.Qənizadənin pedaqoji fəaliyyətində mühüm yer tutan «rus-müsəlman» məktəblərinin təşəkkülü və inkişafından bəhs olunur. Əsaslandırılır ki, «rus-müsəlman» məktəbi 1887-ci ildə oktyabr ayının 20-də fəaliyyətə başladı[3]. Məktəbin çox tez və vüsətlə uğur qazanmasının ilkin göstəricisi onun şagird kontingentinin surətli bir templə artması faktorudur. Məsələn, əgər tədris ocağı cəmi on-on beş şagirdlə fəaliyyətə başlamışdısa, noyabrın 12-nə qədər 50-ə, noyabrın 16-da 70-ə, bir neçə gün sonra isə 76-ya çatdı. Bununla belə məktəbə axın yenə də davam etməkdə idi. Lakin artıq sinif otaqları darlıq etdiyindən və yer olmadığından qəbul dayandırıldı. 50 nəfərə qədər şagird kənarda qaldı. Əvvəllər «rus-müsəlman» məktəbi üçillik ibtidai təhsil müəssisəsi kimi fəaliyyət göstərirdi. Sonra onun təlim-tədris strukturu bir az da təkmilləşdirildi. Məktəb «rəsmən bir sinifli (tədris müddəti iki il) olmasına baxmayaraq, sonralar 2 sinifli (tədris müddəti 4 il) oldu və təlimin məzmunu nisbətən genişləndirildi». «Rus-müsəlman» məktəbi yeni tipli, müasir təlim metodlarına əsaslanan «üsuli-cədid» məktəbi idi. 1887-1891-ci illər ərzində məktəb məzunlarının sayı 100-ə çatmışdır. Dörd il tək fəaliyyət göstərən «rus-müsəlman» məktəbinin sayı artır. 1891-ci ilin sentyabrından etibarən bu tipdə iki təhsil ocağı fəaliyyətə başlayır. Bunlar 1-ci və

[1] ASE. 10 cilddə. VI c., Bakı: ASE Baş Redaksiyası, 1982, s. 608
[2] Məmmədov X. S.M.Qənizadənin pedaqoji görüşləri // V.İ.Lenin ad. APİ-nin Elmi əsərləri, XI seriya, 1963, №3, s.25-33
[3] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 2000, 366 s.

2-ci «rus-müsəlman» məktəbləri (rəsmi sənədlərdə 1-ci və 2-ci «rus-tatar» məktəbi) adlanır. Birinci «rus-müsəlman» məktəbi Çənbərəkənddə Rzaqulu Nəcəfovun mülkündə, 2-cisi isə Spasski küçəsində Abdulla Əmirovun evində (indiki 18 nömrəli məktəbin yerində) açılır. 1-ci «rus-müsəlman» məktəbinin müdiri H.Mahmudbəyov, ikincininki isə S.M.Qənizadə təyin olunur[1]. S.M.Qənizadənin müdir olduğu təhsil ocağı onun ölümündən sonra da uzun müddət xalq arasında «Mirzə Məcid» məktəbi adlanırdı.

Dissertasiyanın ikinci fəsli "**S.M.Qənizadənin yaradıcılığında təhsil və təlim məsələləri**" adlanır. İkinci fəslin ***"Ana dilinin tədrisi və məktəb barədə S.M.Qənizadənin baxışları"*** adlı ilk yarımfəslində onun pedaqoji fəaliyyətində mühüm yer tutan ana dili təlimi problemi idi. Əslində bu ideya onun müəllimlik fəaliyyətinin təməlini və əlifbasını təşkil edir. Bir ziyalı olaraq o, imperiyanın sərhədləri daxilində bütün sahələrdə olduğu tək maarif və təhsil kimi strateji bir cəhbədə də velikorus şovinizminin tuğyan etdiyini, yerli xalqın dilinə biganə münasibət bəslənildiyini yaxşı görürdü. Elə buna görə də onun əməli işində əsas istiqamətlərdən biri təhsil ocaqlarında milli dilin tədrisinə nail olmaq idi. S.M.Qənizadə «rus-müsəlman» məktəbində müəllim və müdir işlədiyi 18 il (1887-1905) ərzində daim məktəbdə doğma dilin tədrisinə xüsusi diqqət və qayğı ilə yanaşırdı. Təsadüfi deyil ki, istər il boyu tədris zamanı, istərsə də şagirdlərin imtahan vaxtı məktəbə yoxlama məqsədilə gələn müfəttişlər, Bakı Şəhər Dumasının üzvləri həmişə başqa fənlərlə yanaşı Azərbaycan dilinin tədrisi səviyyəsindən də razı qalırdılar. Çünki mahir pedaqoq Sultan Məcidin dərs dediyi şagirdlər cəmi bir neçə ilə ana dilində kifayət qədər qənaətləndirici şəkildə yazmağı və oxumağı bacarırdılar. Maarifpərvər ziyalı Qori müəllimlər Seminariyasının Tatar (Azərbaycan) şöbəsinin, habelə Bakı və Dağıstan quberniyası xalq məktəblərinin inspektoru işlədiyi dövrdə də monarxiya rejiminin bütün maneələrinə, tədris və oxu kitablarının yoxluğuna baxmayaraq doğma dilin tədrisi yolunda mümkün olan hər şeyi etməyə səy göstərirdi. Onun dərslikləri və lüğətləri də bu sahədəki ehtiyacı ödəmək naminə atılan addımlar idi. Təbii ki, bu dərslik və lüğətlər gərgin əməyin, ciddi səyin nəticəsi kimi meydana çıxmışdı. Ana dilinin tədrisi ilə bağlı S.M. Qənizadə həm nəzəri fikirlər söyləyir, həm də əməli addımlar atırdı. Belə ki, o, keyfiyyətli dərs keçmək, bu cür dərsləri təşkil etmək, başqa müəllimlərə öyrətmək, dərsliklər hazırlamaqla yanaşı, dövri mətbuatda ana

[1] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: F.57, siy.1, iş 233

dilinin təliminin qanun-qaydalarının sabitləşməsi, təlim normativlərinin dürüstləşdirilməsi, pedaqoji həyata uyğunlaşdırılması naminə maraqlı məqalələrlə çıxış edirdi. Bununla da mövcud problemi aktuallaşdırır, demokratik məsləkli ziyalıların diqqətini bu məsələyə cəlb edir, onu müzakirə obyektinə çevirməyə cəhd göstərirdi. S.M.Qənizadənin ana dili və onun tədrisi ilə bağlı 1905-ci ildə «Həyat» qəzetində (10 noyabr, №99) çap etdirdiyi «Hansı dil ilə yazmalı?» adlı məqaləsi bu cəhətdən daha xarakterikdir. S.M.Qənizadə doğru olaraq belə mülahizə edir ki, mətbuat, elm, maarif və tədris dili elə bir dil olmalıdır ki, hamı tərəfindən başa düşülsün və qəbul olunsun. Əks təqdirdə tərəqqi yolunda görünən işlər, göstərilən cəhdlər bir səmərə verməyəcəkdir. Çünki əgər deyilənlər və yazılanlar qəliz, anlaşılmaz dil ilə bəyan olunarsa, onu beş-üç nəfərdən başqa başa düşən tapılmaz. Mürəkkəb, ibarəli və yaxud ləhcə xüsusiyyətlərinə söykənən dil nə mətbuat, nə də məktəb üçün yarayar. O səbəbə ki, anlaşılmaz dil ifadə olunan hər cür mətləbin, mənanın üstünə örtük çəkir. Müəlliflə oxucu arasında pərdə rolunu oynayır. Yazılan ən dəyərli fikrin belə üstünə örtük çəkib onu nə böyüklərə, nə də kiçiklərə çatdırmağa imkan vermir. S.M.Qənizadə «Həyat» qəzetinin 1905-ci il 29 iyul tarixli nömrəsində çap edilən başqa bir məqaləsində də ana dili və onun məktəblərdə tədrisi məsələsi ilə bağlı fikirləri yer alır. Məqalə «Tiflis-24 iyul» sərlövhəsi ilə və «Qənizadə» imzası ilə işıq üzü görmüşdür. Sırf pedaqoji mahiyyətli bu yazı 1905-ci ildə imperiya daxilində baş verən maarif və məktəb islahatları, konkret mənada Zaqafqaziyada həyata keçirilməsi nəzərdə tutulan təhsil islahatları ilə bağlı idi. Milli dillərin tədrisində vəziyyət və ona diqqətin artırılması deyilən islahatın məramnaməsinə daxil edilən əsas məsələlərdən idi. S.M.Qənizadə göstərir ki, məktəbin insanlara bəxş etdiyi «maarif məşəlinin işığı» məktəb vasitəsilə şölələnir və başqalarının hidayət yolunu işıqlandırır. Ədibə görə məktəb olmadan nə müasir tərbiyə, əxlaq və amala malik kamil insan yetişdirmək, nə də istənilən tərəqqiyə nail olmaq mümkün deyil.

***"S.M.Qənizadənin dərslikləri və lüğətləri"*** adlı ikinci yarımfəsildə əsaslandırılır ki, XIX əsrin sonu və XX yüzilliyin ilk onilliklərində məktəb və maarif hərəkatının başlıca problemlərindən biri müasir ruhlu, dövrün tələbləri ilə səsləşən dərsliklərin, mütaliə kitablarının, tədrisə və oxuya yararlı vəsaitlərin olmaması idi. Bunlar da S.M.Qənizadənin dərsliklərinin və bilavasitə tədris prosesinin bəhrəsi kimi yaranan lüğətlərinin meydana gəlməsinə səbəb oldu. S.M.Qənizadənin dərslik və lüğətləri aşağıdakılardan ibarətdir:

I. «Azərbaycan dilinin müstəqil öyrədilməsi» («Самоучитель татарского языка»). Silsilə şəklində düşünülmüş bu dərslik dörd hissədən ibarətdir: 1.«İstilahi-Azərbaycan» - I, II hissələr. Oxu, yazı və qrammatika («Полнейший самоучитель татарского языка, Кафказско-Азербайджанского наречия. Чтение, письмо и грамматика»); 2. «Rusca-Azərbaycanca lüğət» - III hissə («Русско-татарский словарь» - III часть); 3. «Azərbaycan (türk) dilinin dilmancı» («Rusi və türki dilmancı»): IV hissə («Самоучитель татарского языка» - IV часть).

II.«Rus dilinin müəllimi» (yaxud «Rus yazısının müəllimi») («Самоучитель русского языка»)

III. «Lüğəti-türki və rusi» («Татарско-русский словарь»)

IV. «Kilidi ədəbiyyat»

V. «Əlifbayi-mütəhərrikə» («Kəsmə əlifba»).

Dediyimiz kimi dörd hissədən ibarət dərslik, lüğət və dilmanc kitablarının I və II hissələrinin azərbaycanca ümumi adı «İstilahi-Azərbaycan» kimi gedirdi. Müəllif özü əsərlərini «Türki Qafqaz dilini öyrənməkdən ötrü bürhan və dəstəvüzdür» annotasiya qeydi ilə oxuculara təqdim edirdi. «İstilahi-Azərbaycan»ın haqqında danışdığımız və ilk nəşri 1890-cı ilə aid olan hissələri (I, II hissə) həmin vaxtdan 1922-ci ilə qədər 6 dəfə işıq üzü görmüşdü. Bu fakt kitabın istər dərslik kimi məktəblilər, istərsə də Azərbaycan dilini öyrənmək istəyənlər, habelə kütləvi oxucu üçün nə qədər maraq doğurduğunu aydın şəkildə göstərir. Onu da deyək ki, dərsliyin əvvəlki 5 nəşrində I və II hissələr bir qayda olaraq bir yerdə çap olunsa da, 1922-ci ilə aid son nəşr yalnız II hissədən ibarətdir. Dərslik hər dəfə işıq üzü gördükcə müəllif onun üzərində işləmiş, onu təkmilləşdirmiş, əlavələr və düzəlişlər etmişdi. Bu cəhət kitaba yazılan girişə də aiddir.

«İstilahi-Azərbaycan» yalnız nəzəri təhlil və şərhlərdən, elmi mülahizələrdən ibarət əsər deyil. Müəllif burada təlim prosesinin xüsusiyyətlərini, dərsliyə məxsus elmi-metodiki tələbləri ciddi şəkildə nəzərə almış, onu tam şəkildə müasir dərsliyin tələblərinə uyğun şəkildə ərsəyə gətirmişdi. Belə ki, dərslikdə təlimin sadədən mürəkkəbə, yaxından uzağa prinsipi əsaslı surətdə göstərilmişdi. Eyni zamanda elmi məziyyətlə təlimin praktiki tələbi uzlaşdırılmışdı. Yəni pedaqoq-alim dilin şagirdlərə öyrədilməsi probleminin yalnız nəzəri istiqamətdə aparılmasının lazımi effekt verə bilməyəcəyini yaxşı dərk etdiyindən məsələyə praktiki mövqedən də yanaşmağı lazım bilmişdi. Müəllif dərsliyə yazdığı "Ön söz"də Azərbaycan dilinin təbiəti, xüsusiyyətləri, ifadə və söz yaradıcılığı imkanları, terminləri, başqa dillərlə əlaqəsi, özünəməxsus cəhətləri, gələcəyi və s. barədə maraqlı

mülahizələr söyləyir. Əslində bu mülahizələr şagirdləri və ümumən, oxucunu dilimizin həm spesifikası, həm də üstünlükləri ilə tanış etmək məqsədi güdür.

S.M.Qənizadə təlim-tədris işləri ilə bilavasitə məşğul olduğundan ərəb əlifbasındakı hərflərin bir çoxunun Azərbaycan dilinə yaramadığını, həmçinin dilimizdəki bəzi səslərin ərəb əlifbasında olmadığını, bunun təlim prosesində böyük çətinliklər törətdiyini görürdü. Dərs zamanı o, həmişə praktiki olaraq bu çətinliyin şahidi olurdu. «İstilahi-Azərbaycan»da əsas şərhlər rus dilindədir. Nümunələri isə müəllif Azərbaycan dilində ərəb əlifbası ilə, bəzən də həm ərəb, həm də kiril əlifbası ilə verir. Dərsliyin I hissəsi «Oxu və yazı» qaydalarını əhatə edir. Onun məzmunu aşağıdakı 17 mövzudan ibarətdir: 1. Hərflərin şəkli və adları; 2. Hərflərin adlara görə işarələrə ayrılması; 3. Əsas işarələr; 4.Hərflərin altında və üstündə qoyulan işarələr barədə; 5. Hərflərin tələffüzü; 6.Hərflərin dürüst izahı; 7. Sətiraltı və sətirüstü işarələr; 8. Hərflərdə sətiraltı və sətirüstü işarələrin işlədilməsi; 9. Diakritik samit işarələr; 10. Sait səslər; 11.Mürəkkəb saitlər; 12.Hərflərin mənşəyinə görə təsnifatı; 13. Düzgün yazılışa dair şərhlər; 14.Hərf birləşmələri və onların şəkli-dəyişilməsi; 15.Hərflərin şəkli dəyişilməsini göstərən cədvəl; 16.Yazı qaydalarına aid şərhlər; 17.Yazı üçün tapşırıqlar. «İstilahi-Azərbaycan»ın II hissəsində aşağıdakı doqquz nitq hissəsindən söhbət açılırdı. 1.İsim; 2.Sifət; 3.Say; 4.Əvəzlik; 5.Fel; 6.Zərf; 7.Qoşma; 8.Bağlayıcı; 9.Nida. Göründüyü kimi nitq hissələrinin indiki elmi təsnifatından «Ədat» S.M.Qənizadənin bölgüsündə yoxdur. Kəmiyyətcə azlıq təşkil edən həmin köməkçi nitq hissəsinə aid sözləri müəllif qoşmalara daxil etmişdir. Mövzular yığcam işlənilmiş, praktiki misallarla zənginləşdirilmişdir. «İsim» bəhsində konkret olaraq həmin nitq hissəsinə aid daha zəruri görünən aşağıdakı məsələlərdən danışılır: İsimlərdə cins («rod») anlayışı; tək və cəm isimlər; isimlərin hallanması və ona aid cədvəl; sözdüzəldici şəkilçilər (düzəltmə sözlər).

S.M.Qənizadənin «Самоучитель татарского языка» adlı silsilə təşkil edən tədris kitablarından III hissə «Lüğəti-rusi və türki»dən («Русско-татарский словарь») ibarətdir. Həmin lüğətin ilk nəşri «İstilahi-Azərbaycan»ın I və II hissəsi ilə eyni ilə – 1890-cı ilə aiddir. Belə bir lüğətin azərbaycanca oxu, yazı və qrammatik qaydalara, nəticə etibarı ilə Azərbaycan dilinin təlim və tədrisinə, dilin daha yaxşı mənimsənilməsinə əsaslı şəkildə yardım edəcəyini bir pedaqoq fəhmi ilə anlayan S.M.Qənizadə müəllimlik fəaliyyəti zamanı hər iki işi paralel aparırdı. Yəni həm ana dilinin oxu, yazı və qrammatik qaydaları ilə bağlı dərslik, həm də

rusca-azərbaycanca lüğət üzərində işləyirdi. Bunların hər ikisinin ilkin variantı üzərində işini təxminən eyni vaxtda 1889-cu ilin ortalarında başa çatdırdı. 1890-cı ildə hər ikisini çap etdirə bildi. «Lüğəti-rusi və türki» də 1890-cı ildən 1922-ci ilə qədər altı dəfə işıq üzü görmüşdür. S.M.Qənizadənin «Lüğəti-rusi və türki» əsəri təlim və tədris üçün yararlı bir vəsait olmaqla yanaşı dilçilik tarixində ilk rusca-azərbaycanca lüğət kimi də mühüm elmi-tarixi dəyərə malikdir. Pedaqoq alimin «Azərbaycan dilinin müstəqil öyrənilməsi» («Самоучитель татарского языка») adlı silsilə dərs kitablarından IV hissə «Rusi və türki dilmancı» adlanır. Üz qabığında kitabın adı bütöv halda bu şəkildə gedir: «Самоучитель татарского языка с русскою транскрипцею татарских слов в 4-х частях». Əsərin ilk nəşri 1894-cü ilə aiddir. 1903-cü ildə kitab ikinci dəfə daha təkmil şəkildə, əlavələrlə işıq üzü görmüşdür. Belə ki, onun ilk nəşri 44, ikinci çapı isə 55 bölmədən ibarətdir.

«Rusi və türki dilmancı» Azərbaycan yazısını və dilini öyrənməkdən ötrü yazılmış silsilə dərs vəsaitlərinin yekunudur. «Rusi və türki dilmancı» elə bir münasib məzmuna malikdir ki, ondan bir təlim vasitəsi kimi həm müəllim və məktəb şagirdləri, həm də Azərbaycan dilini öyrənmək istəyən rus dillilər istifadə edə bilərlər. Canlı danışıq üçün əyani vasitə kimi nəzərdə tutulmuş kitab 55 bölmədən ibarət olub 2800 mətləbi (cümləni) əhatə edir. Onun məzmunu barədə təsəvvür yaratmaqdan ötrü bölmələrdən bəzilərinin sərlövhələrini xatırlatmaq kifayətdir: «Səyahət və səfər», «Yolda», «Hava, yağış, külək», «Bank, istiqraz, borc, hesab və müflisləşmə», «Dava, müharibə və dava nizamı», «Memar, incinar və təmirat», «Notarius», «Polisə», «Teatr və sirk», «Həkim, təbib və cərrah», «Müfəttiş, silistçi və qazi», «Məktəb və dərs adabı», «Dillər xüsusunda», «Məsəllər», «Ədəbiyyat», «Çaşt, nahan, iftar, çay və qəhvə», «Üzürxahlıq» və s. Ümumiyyətlə, bölmələr həyat, məişət, mədəniyyət və s.-nin müxtəlif sahələrinə aiddir. Bütün cümlələr (mətləblər) əvvəlcə rus dilində, sonra kirill əlifbası ilə azərbaycanca, nəhayət, Azərbaycan dilində əski əlifba ilə verilmişdir. Müəllif girişdə qeyd edir ki, o, cümlələri həm də rusca ərəb əlifbası ilə vermək istəmiş, lakin həmin əlifba ilə rus dilində bir sıra sözləri orfoqrafik cəhətdən düzgün yazmaq mümkün olmadığından bu fikrindən imtina etməli olmuşdur.

S.M.Qənizadə məqsədli olaraq kitabın bir neçə bölməsini rus və Şərq ədəbiyyatı nümayəndələri barədə məlumata həsr etmişdir. Burada rus və şərq klassiklərinin bəzilərinin həyatı və əsərləri barədə maraqlı məlumatlar verilir.

S.M.Qənizadənin pedaqoji irsi içərisində «Rus yazısının müəllimi» əsəri də xüsusi yer tutur. Əsər 1896-cı ildə Bakı quberniya idarəsinin mətbəəsində çap olunmuşdur. 22 dərsdən ibarət olan bu tədris vəsaiti Azərbaycanca-rusca yazı və danışıq kitabı şəklində tərtib olunmuşdu. Dərslikdə əvvəlcə rus əlifbası, onun yazı qaydaları, sonra isə danışıq öyrədilirdi. Əsərdən həm rus dilini öyrənmək istəyən azərbaycanlı şagirdlər, həm də geniş oxucu auditoriyası istifadə edə bilərdi. Müəllif özü bu kitabı «İstilahi-Azərbaycan» üçün «kilid» adlandırırdı. Mövcud kitabın davamı və onun öyrənilməsi prosesini asanlaşdırmaq məqsədilə S.M.Qənizadə yeni bir lüğət – «Lüğəti - türki və rusi» tərtib edərək 1904-cü ildə nəşr etdirir. Azərbaycanca-rusca lüğət şəklində tərtib edilmiş və 12 min sözü əhatə edən əsər rus dilini öyrənməkdən ötrü faydalı bir mənbə idi.

«Lüğəti-türki və rusi» dilçilik tarixində ilk azərbaycanca-rusca lüğətdir.

Maarifçi ziyalının dərsliklərindən biri də həmkarı, o dövrün mədəni-pedaqoji mühitində nüfuzlu bir müəllim kimi yaxşı tanınan Əliskəndər Cəfərzadə ilə birlikdə tərtib etdiyi «Kilidi-ədəbiyyat» məcmuəsidir. Müntəxabat tipli bu təlim kitabının meydana çıxması təsadüfi deyildi. O, ilk növbədə «rus-müsəlman» məktəblərində tədris olunan «fars dili» fənninin öyrədilməsinə yaranan ehtiyacla bağlı meydana gəlmişdi. «Kilidi-ədəbiyyat» Azərbaycanda meydana gəlmiş və işıq üzü görmüş müasir məzmunlu ilk fars dili dərsliyi idi. «Kilidi-ədəbiyyat» peşəkar müəllimlər tərəfindən hazırlandığından bir müntəxabat-dərslik kimi pedaqoji və metodiki cəhətdən lazımi tələblərə uyğunlaşdırılmışdı. Onun tərtibi zamanı aşağıdakı zəruri cəhətlər nəzərə alınmışdı: birincisi, materialların seçimində onların müasir şagird üçün faydalı olub olmaması, məzmun, ideya, aşıladığı tərbiyəvi fikir, təlim baxımından nə qədər dəyər kəsb etməsi; ikincisi, seçilən materialların həcmi; üçüncüsü, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu; dördüncüsü, farscanı öyrənmək mənasında dil və üslub baxımından faydalı olması. Kitab ibtidai məktəb şagirdləri üçün nəzərdə tutulduğundan əsərlərin həcm baxımından yığcamlığına, fikrin aydınlığına, məktəblilərin maraq dairəsinə uyğunluğuna diqqət yetirilmişdi. Məqsəd həm şagirdlərə fars dilini öyrətmək, həm də onları şərq və Azərbaycan ədəbiyyatının bəzi klassikləri, folklor və yazılı ədəbiyyat nümunələri ilə tanış etmək, nəhayət, böyüməkdə olan nəslin müsbət mənəvi-əxlaqi ruhda, tərbiyəvi xarakterdə böyüməsinə yardım göstərmək idi. Dərslikdə göstərilən pedaqoji və metodiki mətləblər ustalıqla izlənilmişdir.

Müntəxabata daxil edilən materiallar, əsasən, kiçik həcmli bədii əsərlərdən, nəsr və poeziya nümunələrindən ibarətdir. Bununla belə bəzi şərq sənətkarlarının həyatı barədə də qısa məlumatlar verilir.

Dərslik iki bölməyə ayrılır: nəsr və poeziya bölmələri. Əvvəlcə nəsr, sonra şeir nümunələri verilir. Nəsr hissəsində kiçik həcmli lətifələr, hekayətlər, rəvayətlər, təmsillər və s. yer alır. Bunlar Azərbaycan və şərq xalqlarının folklor və yazılı ədəbiyyatından, ayrı-ayrı görkəmli tarixi şəxsiyyətlərin həyatından alınmış ibrətamiz, tərbiyəvi ruhlu örnəklərdir. Şeir nümunələri isə Firdovsi, Nizami, Sədi, Hafiz, Cəlaləddin Rumi və s. şərq şairlərinin yaradıcılığından götürülmüşdür. Uşaqların yaş və anlam səviyyəsinə müvafiq seçilmiş əsərlərdə cəhalət, elmsizlik, maarifsizlik, nadanlıq, vəfasızlıq, düşüncəsizlik, kütlük, bədxahlıq, vədəxilaflıq, fərasətsizlik, acgözlük, tənbəllik, nəzakətsizlik, ədalətsizlik, qəddarlıq və s. qeyri-insani sifətlər pislənilir. Elmin, maarif və məktəbin əhəmiyyəti aydınlaşdırılır. Xeyirxahlıq, sədaqət, böyüyə və valideynlərə hörmət, ədalət, səxavət, diribaşlıq, zirəklik, hazırcavablıq, əməksevərlik, düzlük, halallıq, Tanrı hikmətinə inam, etiqadlı olmaq və s. mənəvi-əxlaqi keyfiyyətlər təbliğ edilir. Ümumiyyətlə, tərbiyəvi-didaktik fikir dərslikdəki əsərlərin əsas ideyasıdır.

S.M.Qənizadənin pedaqoji irsinə daxil olan təlim kitablarından biri də «Əlifbayi-mütəhərrikə» («Kəsmə əlifba», «Hərəkət edən əlifba») adlı əlifba dərsliyi olmuşdur. Bu ənənəvi əlifba kitablarından fərqli, müəllifin özü tərəfindən düşünülmüş, kartonlardan kəsilib hazırlanmış bir əyani vəsait olmuşdur. Məktəbə yenicə gedən uşaqların ərəb əlifbasını tez və asan öyrənməsi üçün nəzərdə tutulmuşdu. Beləliklə, S.M.Qənizadənin «İstilahi-Azərbaycan», «Rus dilinin dilmancı», «Rus dilinin müəllimi», «Kilidi-ədəbiyyat», «Lüğəti-türki və rusi», «Lüğəti rusi və türki», «Əlifbayi-mütəhərrikə» kimi pedaqoji əsərləri məktəb və təhsil tariximizdə böyük dəyərə malikdir. Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitablardan faydalanmışlar.

Dissertasiyanın üçüncü fəsli "**S.M.Qənizadənin yaradıcılığında tərbiyə məsələləri**" adlanır. Fəslin "***Müəllim, onun şəxsiyyəti və qadın tərbiyəsi haqqında***" adlı ilk yarımfəslində əsaslandırılır ki, Azərbaycanın maarif və pedaqoji fikir tarixində müəllim və onun şəxsiyyəti barədə geniş söz açan, ona xüsusi dəyər verən ziyalılarımızdan biri də S.M.Qənizadə olmuşdur. O, bir müəllim kimi bu sənətin ağırlığını, çətinliyini, bir maarifçi kimi şərəfini, bir ziyalı kimi səmərəsini, uzaqgörən bir vətəndaş və millət xadimi kimi xalqın gələcəyi yolundakı faydasını aydın surətdə dərk edirdi.

Bunu onun istər bir peşə sahibi kimi pedaqoji fəaliyyəti, istərsə də əsərlərindəki nəzəri mülahizə və baxışlar sübut edir.S.M.Qənizadənin həm «Məktubati-Şeyda bəy Şirvani» adlı əsərində, xüsusilə də onun «Müəllimlər iftixarı» adlanan birinci hissəsində, həm də publisistik məqalələrində müəllim və onun şəxsiyyəti ilə bağlı kifayət qədər aydın, əhatəli fikir və qənaətlər vardır. Həqiqətən də, «Müəllimlər iftixarı» əslində S.M.Qənizadənin pedaqoji traktatıdır. Burada maarifpərvər ədibin cəhalətə qarşı mübarizədə xalqın maariflənməsi yolunda müəllimin və məktəbin rolu, mühitin, ailənin uşaq tərbiyəsinə təsiri, gənc nəslin düzgün tərbiyəsi məsələləri haqqındakı fikirləri verilmişdir»[1]. Müəllifin fikrincə, müəllimin ilk keyfiyyəti mərifət sahibi olmaqdır. Bu Allah tərəfindən insana verilən ali bir nemətdir və mərifət sahibi olmadan əsl müəllim olmaq mümkün deyil. Şeyda bəy (əslində müəllif özü) onu mərifət sahibi edib müəllimlik qapısını üzünə açdığı üçün sevinir. S.M.Qənizadəyə görə əsl müəllim daim öz şagirdlərinin qayğıları, dərdi, problemləri ilə yaşamalıdır. Onun batinindəki səs məktəb zəngi kimi həmişə onu qəflətdən oyatmalı, dərsə, öz şagirdlərinə elm öyrətməyə təşviq etməlidir. Belə bir müəllim nümunəsi olan Şeyda bəy öz əməlləri və düşüncələri ilə daim şagirdləri ilə birlikdədir. Hətta o, yatanda da sinif otaqlarını, otaqdakı şagirdlərini düşünür. Səfərə çıxdığı üçün müvəqqəti olaraq məktəbdən uzaqlaşan Şeyda bəy hər gün dərs başladığı vaxt, yəni səhər saat 8-də yuxudan oyanır. Bir «sədayi-batini» ona deyir: «… nə yatıbsan, ayıl! Saat səkkizdir, iki yüz şagird dərs otaqlarında müntəzir dayanıb səni gözləyirlər!...» .

S.M.Qənizadə müəllimlik peşəsini bağbanın işi ilə müqayisə edir. Göstərir ki, bağ bağbanın qulluğuna möhtac olub qulluqsuz bar-bəhrə, gül-çiçək vermədiyi kimi müəllimsiz də «aləm evi» viranəyə bənzəyər, bəşəriyyət tərəqqi, fəzilət və elm tapa bilməzdi. Ona görə də müəllimlik bütün məşğuliyyətlərdən, hətta insana milyonlarla pul, sərvət gətirən fəaliyyət növlərinin, peşələrin hamısından uca və şərəflidir. Pedaqoqun fikrincə: «Müəllimin evi məktəbxanadır, müəllimin nökəri məktəb mülazimidir, müəllimin təvabe və ətabiri cocuq-şagirdlərdir, müəllimin müxəlləfatı qara-qura məktəb mizləridir. Müəllimin istirahəti dəftərlər təshihidir. Müəllimin mal və mətaı dərs və təlimdir. Müəllimin kəsb və icrəti öz millətinin məhəbbət və iradətidir». Şeyda bəy müəllimlik sənəti ilə

---

[1] Məmmədov X. Sultan Məcid Qənizadə (həyatı və yaradıcılığı): Fil. elm. nam. …dis. Bakı, 1963, 249 s.

fəxr edir, onu hər cür mal-dövlətdən, pul və sərvətdən üstün sayır. Onun qənaətinə görə hər kəs öz mal və dövlətindən zəkat verər. «Əhli-maarif zümrəsindən» olan müəllimin zəkat verəcəyi hədiyyəsi də kitab ola bilər. Kamil, mənəviyyatlı insanın nəzərində bundan böyük hədiyyə ola bilməz. S.M.Qənizadə Şeyda bəyin dili ilə müəllim barədə öz baxışlarını belə ifadə edir: «Mənim rəy və təsəvvürümə görə müəllim dediyimiz zat mərifət kütləsinin dərbanı və nicat yolunun rəhbəridir. Elə rəhbər ki, məktəbxana astanasında hidayət məşələsi sancıb əbərayi-ruzigar xidmətinə gecə və gündüz amadə dayanarkən hər bir təvəllayə gələn körpə üçün səngin təlim qapısını iradət zoru ilə açıb nicat yolunu nişan verir».

Müəllif tərbiyə və təhsil arzusu ilə məktəbə qədəm qoyan şagirdləri cəhalət yolunda ayaqlarına çöp, tikan batıb yaralayan şikəstlərə bənzədir. Onları bu yolda sağaldacaq, yolun tikanını, çöpünü təmizləyəcək yeganə varlıq müəllimdir. Müəllim isə bu cəhalət tikanlarını ancaq elm, səbr və sabitqədəmlik yolu ilə təmizləyə bilər. Bir sözlə, müəllim cəhalətdən qurtuluşun, elm və mərifət sahibi olmağın yer üzündəki yeganə vasitəçisi, təlim isə insan balalarını qeyb edəcək «qabili-feyz», «əşrəfi-məxluqatı» kamal və fəzilətə çatdıracaq yeganə vasitədir.

S.M.Qənizadə müəllimliyi, başqalarına elm və savad öyrətməyi bu yolun yolçusu üçün bir «din borcu», «şəni uca» vəzifə hesab etsə də, onun çətinlik və məşəqqətlərindən də söz açır. Qeyd edir ki, «Müəllimlik hər bir əsrdə ağır olubsa, bu əsrimizdə dahaca ağırraqdır!».

S.M.Qənizadə «Çin və Konfutsi» məqaləsində də müəllim və onun şəxsiyyəti məsələsinə toxunur. Konfutsi və onun ideyalarının 2500 ildən artıq Çin xalqının ictimai-mədəni həyatında oynadığı rolu diqqət mərkəzinə çəkir. Müəllimin bir tərbiyəçi və ideoloq kimi cəmiyyətin inkişafındakı böyük rolunu qabartmağa çalışır.

S.M.Qənizadənin pedaqoji irsində xüsusi önəm verdiyi məsələlərdən biri də *qadın tərbiyəsidir.* Qadın tərbiyəsi və cəmiyyətdə, ailədə qadının mövqeyi məsələsinə S.M.Qənizadə «Gəlinlər həmayili» əsərində daha geniş yer verir. Həm də burada müəllif məsələyə sırf sosial prizmadan deyil, dini-ictimai mövqedən yanaşır. Göstərir ki, «Ünas məsələsinin həll olunması məhz Allah-taala özü qoyduğu qanuna, yəni insafa bağlıdır. İnsaf olan yerdə zülm ola bilməz, yəni bir nəfs o biri nəfsə qələbə edəməz» (106, 70). Göründüyü kimi S.M.Qənizadə cəmiyyətin bütün üzvlərinin, qadın və kişinin mütləq bərabərliyi ideyasını qəbul etmir. Onun rəyinə görə əgər Allah-taala insanları fərqli yaradıbsa, yaradılışda müəyyən təbii ayrılıqlar mövcuddursa, insanın bu nizamı mütləq mənada pozmaq istəyi münasib

deyil. Elə bu səbəbə pedaqoq qadının cəmiyyətdə rolu və onun tərbiyəsi məsələsinə də həmin meyarla yanaşır. Onun fikrincə qadın təhsil almalı, yaxşı tərbiyəçiyə çevrilməli, fəal cəmiyyət üzvü olmalı, cəmiyyətin və uşaqların tərbiyəsində onun mövqeyi artırılmalıdır. Lakin onun tərbiyə olunan və tərbiyəçi kimi mövqeyi Allah-taalanın buyurduğu şəriət hökmləri, sağlam və mütərəqqi dini hökmlərlə nizamlanmalıdır.

Fəslin ***"Mənəvi-əxlaqi tərbiyə haqqında"*** adlı ikinci yarımfəslində S.M.Qənizadənin tərbiyə nəzəriyyəsində şəxsiyyətin mənəvi-əxlaqi cəhətdən kamilləşməsi, yetkin əxlaqa, saf mənəviyyata yiyələnməsi başlıca yer tutur. Maarifçi sənətkar məktəbə yalnız böyüməkdə olan nəslə savad, elm və bilik öyrədən bir təhsil ocağı kimi deyil, həm də tərbiyə məbədi kimi baxır. S.M.Qənizadənin «Məktubati-Şeyda bəy Şirvani» əsərinin qəhrəmanı Şeyda bəy də mənəvi-əxlaqi cəhətdən yetkin və nümunəvi müəllimdir. O, mənəviyyatca saf, pak əqidəyə, təmiz qəlbə, işıqlı niyyətə malik pedaqoqların timsalıdır. Xeyirxah və alicənabdır. Xalqını, vətənini sevdiyi kimi bütün insanlara səmimi, qayğıkeş, xeyirxah münasibət bəsləyir. O, namuslu və vicdanlıdır. Davranışlarında ədəbli, danışığında nəcib, əməllərində xeyirxahdır. Ümumiyyətlə, bu görkəmli maarif xadiminin pedaqoji irsində insan tərbiyəsinin mənəvi tərəflərinin islahı, yüksək mənəvi-əxlaqi keyfiyyətlərin aşılanması əsas məsələdir. O, insan əxlaqının naqis tərəflərinin düzəlməsinə ümid bəsləməyən, onu qeyri-mümkün hesab edənlərin əksinə olaraq həmişə ən pis mühitdə tərbiyələnən adamın tərbiyəsinin də həmin mühitdən uzaqlaşdıqdan və normal mühitə düşdükdən sonra təkmilləşməsinin mümkün olduğunu söyləyir. Ədib insan tərbiyəsinin mənfi, naqis cəhətləri barədə mühakimə yürüdərkən bu cəhətlərin yaranmasını cəhalətdə, maarifsizlikdə görür. Belə hesab edir ki, kütlə arasında maarif geniş yayılsa, insanlar mənəvi cəhətdən saf, əxlaqi cəhətdən dürüst yetişər. Oğurluq, quldurluq, fitnə, hiylə, nadanlıq bədxahlıq, yalançılıq və s. kimi pis əməllər ortadan qalxar. S.M.Qənizadə dərsliklərinin tərtibində də uşaqların yalnız təhsil almasını, elm və maarif kəsb etməsini deyil, tərbiyəsini, mənəvi-əxlaqi cəhətdən kamilləşməsini də diqqət mərkəzində saxlayır.

Müəllifin Ə.Cəfərzadə ilə fars dilinin tədrisi üçün tərtib etdiyi «Kilidi ədəbiyyat» müntəxabatına seçilib daxil edilmiş kiçik həcmli lətifə, hekayət, təmsillər uşaqların ruh və mənəviyyatını qidalandıran dərin məzmun və ideyaya malik əxlaqi-tərbiyəvi əsərlərdən ibarət idi. Mövzu və ideyaca rəngarəng olan bu yığcam həcmli bədii nümunələr kiçik və gənc yaşlı nəslin daxili aləminə müxtəlif istiqamətlərdən pozitiv mənada təsir göstərmək məqsədi izləyirdi. Uşaqları ağıllı, xeyirxah, elmli, təvazökar,

ədalətli, böyüyə və valideynlərə hörmət göstərən, halal, doğrucul, sözündə və əməlində bütöv şəxsiyyət və s. kimi tərbiyə etmək məramı ifadə edirdi. S.M.Qənizadənin uşaq əsərləri də əxlaqi-tərbiyəvi məzmun və ideyaya malikdir. «Tülkü və Çaqçaq bəy», «Nağıl» adlı mənzum əsərlər, «Allah xofu», «Qurban bayramı» kimi uşaq hekayələri bu qəbildəndir.

Yarımfəsildə pedaqoqun «Dəbistan» jurnalında işıq üzü görmüş «Allah xofu» hekayəsi də ətraflı təhlil olunmuş, ilahi xof və inam insanın mənəvi-əxlaqi cəhətdən kamilləşməsinin əsas amillərindən biri kimi təhlil olunmuşdur. Ədibin «Allah divanı», «Nabəkar qonşu» hekayələrinin də əsas ana xəttini mənəvi-əxlaqi təmizlik və kamillik təşkil edir.

Fəslin ***“Fiziki tərbiyə haqqında”*** adlı üçüncü yarımfəslində S.M.Qənizadənin fiziki tərbiyə ilə bağlı fikirləri sistemləşdirilir. «Körpə uşaqlar tərbiyəsi» adlı iri həcmli elmi-pedaqoji məqaləsi təhlil olunur. Fiziki tərbiyənin vəzifəsini pedaqoq belə izah edir: «Cism tərbiyəsi cismi-səhhət, lakin müraat edərək balanın əza və zahiri hisslərin səhhət üzrə kamala yetirməyi öyrədir» [1].

Fəslin ***“Vətənpərvərlik və əmək tərbiyəsi haqqında"*** adlı dördüncü yarımfəslində S.M.Qənizadənin vətənpərvərlik tərbiyəsi ilə bağlı ideyaları təhlil və tədqiq olunur. Müəllifin bu mövzuda qələmə alınmış «Janna d’Ark və yaxud üzərayi-Orlean» məqaləsi sırf vətənpərvərlik tərbiyəsi ilə bağlıdır. 1921-ci ildə «Maarif» jurnalında çap olunmuş [2] bu əsər oxuculara vətən və onun müdafiəsi yolunda mübarizə hissi aşılayır. Müəllifin fransız qəhrəmanı, öz canını vətəninin azadlığı, düşməndən xilası yolunda qurban vermiş, Janna d’Arkı Azərbaycan oxucularına təqdim etməsi təsadüfi deyildi. Burada oxucuları məhz bu yöndə səfərbər etmək, vətənpərvərliyin, doğma yurdun müdafiəsi uğrunda mübarizənin nə olduğunu onlara başa salmaq məqsədi izlənilirdi. S.M.Qənizadə doğma yurda sevgidə bir fədakarlıq, cəsarət timsalı olan bu gənc qızı əsl tərbiyə nümunəsi kimi təqdir edir. Başqalarının da bu hissi ondan öyrənmək niyyəti güdür. S.M.Qənizadənin pedaqoji görüşlərində *əmək tərbiyəsi* probleminə də diqqət yetirilir. Onun əsərlərində böyüməkdə olan nəsli əməyə məhəbbət ruhunda böyütmək, onlara əmək təlimi vermək tərbiyə və təlimdə başlıca amillərdən hesab olunur. Maarifçi müəllimin fikrincə ən yüksək mənəvi

---

[1] Qənizadə S.M. Sərgüzəşt, yaxud Məşədi Qurbanın dəftərçəsindən bir nəbzə (satirik hekayə) // Dialoq, 1991, №17-18, s.39-41

[2] Qənizadə S.M. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1965, 228 s.

keyfiyyətlər, nəcib sifətlər, halallıq, əxlaq, duyğular, işgüzarlıq və zəhmətkeşliyə bağlıdır. Pis, iyrənc, müftəxor təbiətlər avaralığın, işsizliyin nəticəsində baş verir.

Deyilənləri yekunlaşdıraraq belə bir **nəticəyə** gəlmək mümkündür:

1. XIX yüzilliyin sonu və XX yüzilliyin əvvəlləri Azərbaycan intibahının «sübhçağı» (F.Köçərli) kimi xarakterizə olunur. Bu dövrdə müxtəlif sahələrdə, o cümlədən xalqımızın məktəb, maarif və pedaqoji həyatında vüsətli bir pərvəriş, canlanma və yüksəliş baş verir. Xalqın müasir mədəni dünyaya qovuşması yolunda misilsiz işlər görülür, böyük tərəqqi əldə edilir. Həmin inkişaf və yüksəlişin yükünü çiyinlərində daşıyan, ağlı, əməli, istedadı və fədakarlığı ilə öz xalqına xidmət edən böyük zəka münəvvərləri yetişir. Onlar bütün varlığı, bacarığı və enerjisi ilə öz millətinin, vətəninin tərəqqisinə çalışır. Belə əvəzsiz şəxsiyyətlərdən biri də Sultan Məcid Qənizadə olmuşdur.

2. S.M.Qənizadə xalqımızın yetişdirdiyi böyük simalar içərisində, yüksək erudisiyalı şəxsiyyət, müəllim, pedaqoq, maarifçi, ictimai-siyasi xadim, jurnalist, alim, ədib, uşaq yazıçısı və s. kimi tanınır.

3. Gərgin, mənalı və bəhrəli bir ömür yaşamış S.M.Qənizadə qızğın pedaqoji fəaliyyət göstərmiş, Azərbaycanın məktəb və təhsil tarixində, məktəb və maarif həyatımızın müasir dünyaya qovuşmasında, milliləşməsində və demokratikləşməsində misilsiz işlər görmüşdür.

4. 1887-ci ildən etibarən pedaqoji fəaliyyətə başlayan maarif carçısı yalnız müəllimliklə kifayətlənməmiş, Azərbaycanda milli teatrın, milli mətbuatın, qiraətxana və kitabxanaların, xeyriyyə hərəkatının canlanmasında, ziyalı birliyinin yaranmasında və s. sahələrdə də tarixi əhəmiyyət kəsb edən işlər görmüşdür.

5. İstər müəllim, istər Qori seminariyasında inspektor, istərsə də Bakı və Dağıstan quberniyası üzrə maarif müfəttişi işləyərkən Azərbaycanın məktəb və maarif həyatının ən bacarıqlı, fəal, işgüzar, öncül siması kimi tanınmış, başqalarına nümunə olmuş, təhsilimizin milliləşməsinə, demokratikləşməsinə çalışmış və bu işdə diqqətəlayiq nəticələrə nail olmuşdur.

6. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə, əsasən, ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, böyük istiqlal mücahidi kimi Azərbaycanın müstəqilliyi və istiqlalı yolunda səy göstərmişdir.

7. Bir vətənpərvər və təcrübəli pedaqoq kimi S.M.Qənizadə Sovet dövründə də Azərbaycan təhsilinin inkişafı uğrunda öz bacarığını əsirgəməmişdir.

8. S.M.Qənizadə H.Mahmudbəyovla birlikdə Azərbaycanda və ümumən Rusiya müsəlmanları arasında ilk «rus-müsəlman» məktəbinin yaradıcısıdır. Yeni, Avropa tipli həmin «üsuli-cədid» məktəbini açmaqla bu iki gənc həm Azərbaycanın, həm də Rusiya müsəlmanlarının məktəb və təhsil həyatında yeni inqilabi çevrilişin təməlini qoymuş, bu sahədə sonrakı tərəqqinin ilk təməldaşları və carçıları kimi tarixə düşmüşlər.

9. O, Orta Asiyada da «rus-müsəlman» məktəblərinin yaradılmasında müəyyən əmək sərf etmişdir.

10. S.M.Qənizadə Azərbaycanda uşaq mətbuatı yaratmaq uğrunda mübarizənin ilk təşəbbüsçülərindən biri kimi tanınır. Buna nail ola bilməsə də, o, sonralar intişar tapan Azərbaycan uşaq mətbuatının pərvərişi yolunda müəyyən əmək sərf etmişdir.

11. Azərbaycanda uşaq ədəbiyyatının, balalarımızın mütaliəçi üçün əsərlərin, qiraət kitablarının yaradılmasında da pedaqoq ədibin diqqətəlayiq zəhməti vardır.

12. Pedaqoji fikir tariximizdə təhsil və təlimlə bağlı həm əməli işlərin həyata keçirilməsində, həm də ideya-nəzəri fikrin zənginləşməsində bir alim, nəzəriyyəçi-pedaqoq kimi S.M.Qənizadənin müəyyən rolu olmuşdur. Onun məqalələrində və dərsliklərində təlimin mahiyyəti, üsul və metodları ilə əlaqəli maraqlı mülahizələr mövcuddur.

13. Təhsil tariximizdə məktəblərdə ana dili və onun tədrisində, tədrisin milli dildə aparılmasında bir vətəndaş ziyalı, milli təəssübkeş kimi pedaqoqun əməyi böyükdür. O, bu istiqamətdə həm əməli addımlar atmış, həm də nəzəri görüş və izahatlar vermişdir.

14. S.M.Qənizadə şagirdlər üçün dərsliklər, məktəblilər, kütləvi oxucular, həvəskarlar üçün lüğətlər yaratmışdır. O, ibtidai və orta məktəb şagirdlərindən ötrü Azərbaycan dilinin fonetika və qrammatikasına dair ilk dərsliyin müəllifidir.

15. S.M.Qənizadə dilçilik tariximizdə ilk «Rusca-Azərbaycanca» və «Azərbaycanca-rusca» lüğətlərin, həmçinin, «Rusca-Azərbaycanca dilmanc»ın, yəni danışıq kitabının müəllifidir.

16. Pedaqoq Azərbaycanda müasir məzmunlu ilk fars dili dərsliyinin («Kilidi-ədəbiyyat») müəlliflərindən biri, ilk əyani vəsait tipli, praktiki əlifba kitabının («Əlifbayi-mütəhərrikə») müəllifidir.

17. S.M.Qənizadə həm öz dövründə gənc nəslin tərbiyə olunmasında praktiki fəaliyyət göstərmiş, həm də öz ideyaları ilə tərbiyə nəzəriyyəsini zənginləşdirmiş, dəyərli əsərləri ilə pedaqogika elmimizə layiqli töhfələr vermişdir. Onun bədii və pedaqoji irsində müəllim, onun şəxsiyyəti, qadın

tərbiyəsi, mənəvi-əxlaqi, fiziki, vətənpərvərlik, əmək, milli və dini birlik tərbiyəsi və s.lə bağlı dəyərli fikirləri vardır. Əsərlərindəki həmin mülahizə və fikirlər bu gün də öz aktuallığını saxlayır.

18. Azərbaycanda bütöv bir ziyalı nəslinin yetişməsində S.M.Qənizadənin əvəzsiz xidmətləri vardır. O ya həmin gənclərə dərs demiş, ya şəxsi nümunə olmuş, ya bilvasitə və dolayısı ilə onlara qayğı göstərmiş, ya da onlar müəllifin dərsliklərindən, ayrı-ayrı əsərlərindən bəhrələnmişlər.

Görkəmli ziyalının Azərbaycanın təhsil, məktəb tarixində, mədəni-maarif həyatında, ədəbi-ictimai gerçəkliyində, pedaqoji irsimizin zənginləşməsində oynadığı böyük xidmətləri nəzərə alaraq aşağıdakı **təklifləri** irəli sürməyi lazım bilirəm:

1. "Azərbaycan məktəb və pedaqoji fiki tarixi" kursunun tədrisində S.M.Qənizadənin pedaqoji irsi daha dərindən öyrədilsin.. Onun həyatı, pedaqoji fəaliyyəti, pedaqoji məzmunlu əsərləri ilə bağlı geniş məlumat verilsin.

2. İndiyə kimi onun yalnız bədii əsərləri çap edilmişdir. Zəngin pedaqoji irsi, publisistik məqalələri diqqətdən kənarda qalmışdır. Bu əsərlər toplanıb tərtib olunsun və ayrıca kitab halında nəşr edilsin. İşıq üzü görən əsərlərinin çoxdan nəşr edildiyi nəzərə alınaraq həmin əsərlər yenidən çap olunsun.

3. S.M.Qənizadənin istər pedaqoji-maarifçilik, ictimai-siyasi fəaliyyəti, istərsə də bir yazıçı, jurnalist kimi yaradıcılığının tədqiqi, öyrənilməsi davam etdirilsin.

4. Onun dərsliklərinin, xüsusilə «İstilahi-Azərbaycan» dərsliyinin tarixi əhəmiyyəti nəzərə alınaraq həmin dərslik tədris tariximizə aid bir nümunə kimi yenidən nəşr edilsin.

5. Adını əbədiləşdirmək məqsədilə anadan olduğu Şamaxı şəhərində və ya Bakıda məktəblərdən və küçələrdən birinə onun adının verilməsi onun ruhuna hörmət və ehtiramın ifadəsi olardı.

Dissertasiya əsas məzmununu müəllifin çap olunmuş aşağıdakı **nəşrlərində** öz əksini tapmışdır:

1. S.M.Qənizadə gənc nəslin milli tərbiyəsi haqqında / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. II cild. Bakı, 2013, s. 394-397

2. S.M.Qənizadənin istiqlal tərbiyəsi ilə bağlı fikirləri // Pedaqoji Universitet Xəbərləri, 2013, № 4, s. 272-275

3. Görkəmli Azərbaycan maarifçisi S.M.Qənizadə / "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 2013, s. 143

4. S.M.Qənizadə ana dilinin tədrisi haqqında / Gəncə Dövlət Universitetinin Elmi xəbərlər, 2014, № 1, s. 250-252

5. Жизнь и основные направления педагогической деятельности С.М.Ганизаде // «Вектор науки» Тольяттинского Государственного Университета, 2014, № 3 (18), с. 134-135

6. S.M.Qənizadə gənc nəslin vətənpərvərlik tərbiyəsi haqqında / Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 16-17 dekabr 2014, s. 219-221

7. Görkəmli Azərbaycan maarifçisi S.M.Qənizadə milli və dini birlik tərbiyəsi haqqında // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, № 3, s. 79-82

8. S.M.Qənizadə müəllim və onun şəxsiyyəti haqqında / Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı Slavyan Universiteti, 2015, № 4, s. 283-286

9. Pedaqoji irsimizdən: Sultan Məcid Qənizadə. Bakı: Elm və təhsil, 2015, 192 s.

10. S.M.Qənizadə müəllim və onun şəxsiyyəti haqqında / Müəllim-tələbə münasibətləri: pedaqoji və psixoloji aspektlər mövzusunda Respublika elmi konfransının materialları. Sumqayıt, 27-28 oktyabr 2016, s. 205-206

11. S.M.Qənizadə gənc nəslin əxlaqi-mənəvi tərbiyəsi haqqında // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2016, s. 247-250

12. S.M.Qənizadə irsində təhsil-tərbiyə məsələləri / Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 25 noyabr 2016, s. 179-180

13. Выдающийся просветитель С.М.Ганизаде о нравственно-моральном воспитании / Психолого-социальная работа в современном обществе: проблемы и решения. Материалы международных научно-практических конференций. Санкт-Петербург, 2016, с. 280-282

**Гюнель Мамедова**

## Вопросы образования-воспитания в творчестве Султан Меджид Ганизаде

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, объект, предмет, цель и задачи, методологические основы, методы, научная новизна, теоретическое и практическое значение исследования и отражены основные положения, выдвигаемые на защиту.

Первая глава диссертации «Основные направления жизни и педагогической деятельности - С.М.Ганизаде». В ней обосновывается, что в конце XIX в начале XX веков С.М.Ганизаде являлся одним из выдающихся личностей азербайджанского народа. Личность, который посвятил свою жизнь образованию, воспитанию, просвещению, процветанию своего народа показал себя великим мыслителем учителем, методистом, талантливым писателем, публицистом, журналистом, драматургом. Он является одним из основателей детской литературы нового типа, общественно-политическим деятелем. В первой главе рассматриваются характерные стороны жизни, педагогической и просветительской деятельности С.М.Ганизаде, анализируются и исследуются основные образцы его педагогического наследия. Рассматривается становление и хроника развития «русско-мусульманских» школ, занимающие важное место в его педагогической деятельности.

Вторая глава посвящена «Вопросам образования и обучения в творчестве С.М.Ганизаде». В этой главе обобщаются мысл С.М.Ганизаде о преподавании родного языка в школе, исследуются методические особенности его учебников и словарей.

III глава диссертации называется «Вопросы воспитания в творчестве С.М.Ганизаде». В ней говорится, что в теории воспитания С.М.Ганизаде основное место занимает совершенность личности с нравтсвенно-моральной стороны, овладение полноценной морали, внутренней чистоты.

В заключении обобщаются выводы и основные проблемы исследования.

**Gunel Mamedova**

## The problems of education in the creativity of Sultan Mejid Ghanizade

The thesis consists of an introduction, two chapters, a conclusion and a list of used literature.

In the introduction the relevance of the topic, the object, the subject, the purpose and the objectives, the methodological basis, the methods, the scientific novelty, the theoretical and practical significance of the study are substantiated and the main provisions put forward for defense are reflected.

The first chapter of the thesis is called "The main directions of life and pedagogical activity of S.M.Ghanizade". It justifies that at the end of the XIX and at the beginning of the XX centuries S.M.Ghanizade was one of the outstanding personalities of the Azerbaijan people. The person who devoted his life to the education, the upbringing, the enlightenment, the prosperity of his people was knownas a great thinker, a professional teacher, a methodologist, a talented writer, a publicist, a journalist and adramatist. He is one of the founders of a new type of children literature, and a social and political figure. S.M.Ghanizadeh has exceptional merits in the development of the education and the enlightenment life of the Azerbaijan people due to the new direction, in organizingEuropean education centers, in democratization and nationalization of education. In the first chapter the characteristic aspects of life, the pedagogical and educational activities of S.M.Ghanizade are researched, the main samples of his pedagogical heritage are analyzed and studied. The formation and chronicle of the development of the "Russian-Muslim" schools are considered the main subject matterof his pedagogical activity.

The second chapter is called "The issues of education and training in S.M.Ghanizade's works." This chapter summarizes the thought of S.M.Ganizadeon teaching the native language in schools, the methodological features of his textbooks and dictionaries.

The title of the thesis is called "The problems of education in the creativity of Sultan MejidGhanizade". It involves that the main part of S.M.Ghanizade's theory of education is occupied by the moral aspects in perfection of the personality, mastering thorough morality, internal purity.

In conclusion the results and the main problems of the study are discussed.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГЮНЕЛ НУРЕДДИН гызы МАМЕДОВА**

# Вопросы образования-воспитания в творчестве Султан Меджид Ганизаде

**5804.01 – общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2017**